Azərbaycanın ədəbiyyatı, Azərbaycan mədəniyyəti və incəsənəti o qədər zəngindir ki, başqa tərəflərdən bizim milli sərvətimizi özününküləşdirmək üçün cəhdlər göstərirlər. Bu yalnız ədəbiyyatla və ya Nizaminin əsərləri ilə bağlı olan məsələ deyildir. Bizim musiqimiz ermənilər tərəfindən utanmadan oğurlanır. Dahi bəstəkarımız Üzeyir bəyin əsərləri mənimsənilir. Bizim milli mətbəximiz yenə də ermənilər tərəfindən oğurlanır. Onlar bunu müxtəlif yollarla erməni mətbəxi kimi təqdim etməyə çalışırlar. Halbuki milli yeməklərimizin adları da Azərbaycan sözləridir. Əg ər ermənidən soruşsan dolma ermənicə nə deməkdir, onu deyə bilməz. Necə ki, Qarabağ deyəndə onlar üçün bu sadəcə bir sözdür, onu anlamırlar. Çünki bu erməni sözü deyildir. Ona görə də belə hərəkətlər, əlbəttə ki, bizi çox üzür. Biz öz milli, mədəni irsimizi qorumalıyıq.

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

*AMEA-dakı çıxışından*

*26.04.2011*